Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# Paulun Heyrətamiz Səyahətləri



Müəllif: Edward Hughes
İllüstrasiya edən: Janie Forest
Uyğunlaşdıran: Ruth Klassen
Alastair Paterson
Tərcümə edən: Günay Əsədova
Təqdim edən: Bible for Children
www.M1914.org

BFC
PO Box 3
Winnipeg, MB R3C 2G1
Canada

©2021 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.

İsanın qulları Paul və Sila zindanda idi. Xeyr, onlar heç bir pis iş görməmişdilər – onlar bir qadından cini qovmuşdular. Onlar Filipidə yaşayan bütlərə ibadət edən adamlara həqiqi Allahın və Onun Oğlu İsanın qüdrətini göstərdilər.



Buna görə onları qamçıladılar, zindana atdılar və kilidlədilər.



Sən Paul və Silanın hirsli və kinli olduğunu fikirləşə bilərsən. Amma onlar elə deyildilər. Əslində, gecəyarısı onlar Allaha alqış ilahiləri oxudular. Bütün məhbuslar və dustaqlar onları eşitdilər.



Birdən mahnı kəsildi.  Allah zindanı yerindən oynatmaq üçün ZƏLZƏLƏ göndərdi.  Bütün qapılar açıldı.  Hamının zəncirləri töküldü.





Ah!  Ola bilməz!  Gözətçi əmin idi ki, bütün məhbuslar həyəcandan qaçmışdılar.  Əgər biri qaçarsa, gözətçi ölümlə cəzalanacaqdı.  Təəssüf ki, yazıq gözətçi öz qılıncını çıxartdı.  O, qılıncını çəkib canına qəsd etmək istədi.

Amma Paul bərkdən qışqırıb dedi: “Canına qıyma, hamımız buradayıq!” Gözətçi bunu görəndə soruşdu: “Ağalar, xilas olmaq üçün nə etməliyəm?” Onlar dedilər: “Rəbb İsaya iman et, sən də, ev əhlin də xilas olarsınız”.  Gözətçi sevinclə iman etdi.





Azad olan Paul və Sila
ertəsi gün camaata İsa
haqqında danışaraq, çox
şəhərlərə səyahət etdilər.
Bəzi adamlar iman etdilər,
digərləri onlara xətər
yetirməyə çalışdılar. Amma
Allah Öz qulları ilə idi. Bir
gecə Paul saatlarla təlim
verirdi. Bir gənc oğlan açıq
pəncərənin yanında oturaraq
yuxuya getdi. Nəyin baş
verdiyini tapa bilərsən?



Hamı gənc oğlanın öldüyünü bilirdi. Amma Pual aşağıya getdi, onu qucaqlayaraq dedi: “Canı sağdır”. Onlar gənc oğlanı diri olaraq gətirdilər və onlar çox sevinirdilər.

Paul və Sila Avropanı səyahət etdikcə onların çox macəraları oldu. Paulun ən böyük macəralarından biri o, gəmidə olarkən baş verdi. Bunlar polad okean reys gəmisi yox, fırtınalı havada asanlıqla çırpınan yelkənli gəmilər idi.





Paul gəmidə idi, çünki o yenidən həbs olunmuşdu.  İndi o, dünyanın mərkəz şəhəri olan Romada imperatorun qarşısına çıxmalı idi.  Güclü küləklər gəminin sürətini azaldırdı.  Qarşıda fırtınalı hava olacağı görünürdü.  Bu, Paul və digər məhbuslar, həmçinin gəmi işçiləri üçün də çətin səyahət olacaqdı.

Paul xəbərdarlıq etdi: “Ağalar, görürəm ki, bu səfər canımıza da çox ziyan və bəla gətirəcək”. Lakin kapitan qulaq asmadı. Dənizdə getməyə davam etdilər. Onlar böyük fırtınaya düşəndə, gəminin kəndirlərini onun altından dolayıb bağlayaraq tədbir gördülər. Əgər gəmi dağılarsa, bu, hamısı üçün sulu məzar olardı.



Gəmi o qədər sürükləndi ki, kapitan hamıya ağır yükləri atıb gəmini yüngülləşdirməyi əmr etdi. Üçüncü gündə onlar gəminin təchizatını da atdılar. Bəlkə bu kömək edəcəkdi.



Gecə vaxtı mələk Paulun yanına gəlib hər şeyin yaxşı olacağını dedi.  Paul: “Ağalar, ürəkli olun!  Allaha inandığıma görə bilirəm ki, hər şey mənə deyilən kimi olacaq.  Amma bizə bir adaya düşmək lazımdır” deyəndə digərləri ruhlandılar.



Bir neçə gün sonra gəmi Malta adasına yaxın yerə sürükləndi. Kapitan üzə bilənlərə birinci dənizə tullanmalarını və quruya üzmələrini əmr etdi. Qalanları da sağ-salamat qurtuldular, bəziləri göyərtədə, bəziləri də gəminin qırıq hissələrində.



Maltada Allah Öz qüdrətini göstərdi. Onlar od qalamaq üçün odun toplayanda zəhərli ilan Paulu sancdı. Adamlar onun öləcəyini fikirləşdi. Amma ilanın zəhəri ona bir şey etmədi. Onda adamlar Paulun allah olduğunu sandılar. Çoxlu xəstə adamlar gəldi və Paul onlar üçün dua edəndən sonra Allah onlara şəfa verdi.



Nəhayət, Paul Romaya çatdı. Bu məhkəmənin eşidilməsi iki il çəkdi. Bu vaxt ərzində Paul ev kirə tutdu və qonaqlar qəbul etdi. Paulun öz qonaqlarına nə danışdığını bilirsən? Allahın Padşahlığı! Rəbb İsa Məsih! Paul bütün digər səyahətlərindəki kimi, Romada da Allahın xidmətçisi idi.



Paul Romadan yazmışdı: “Mən yaxşı mübarizə apardım, yolumu sona çatdırdım, imanı saxladım”.  Müqəddəs Kitab bizə onun həyatının necə bitdiyini demir, amma digər yazılarda Paulun Romada İmperator Neronun əmri ilə başının kəsildiyi deyilir.  Paul yaşadığı kimi öldü – başqalarına İsa Məsih haqqında danışaraq, Allahın sadiq qulu olaraq.



# Paulun Heyrətamiz Səyahətləri

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Həvarilərin İşləri 16, 27, 28

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**